# Avtobioqrafik xırdalıqlar




Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.

*(Əvvəli ötən saylarımızda)*

Ertəsi gün Alatavadakı qohumumuz gilə getdim. O çağlar Alatavada vur-tut üç-dörd ev vardı. Asanlıqla qohumumuzun evini tapdım. Burada da 8-ci kilometrdəkilər təkrar olundu. Bundan sonra kimsədən borc pul almaq fikrinə düşməyib, dəhşətli günlər keçirə-keçirə 1959-cu ilədək 22.5 rubl təqaüdlə yaşamalı oldum. 1961-ci ilin oktyabr ayında böyük alimimiz Xudu Məmmədovun təklifi ilə onun laboratoriyasında laborant vəzifəsinə işə götürüldüm... Çətinliyə tab gətirə bilməyib təhsilini yarımçıq qoymaq istəyənlər az olmurdu. Tez-tez imzasız məktub yazıb Atamın "xalq düşməni", "əksinqilabçı" olduğunu, bu səbəbdən bizim sürgün olunduğumuzu lazımi yerlərə çatdıranlar olurdu.

Məni universitetin siyasi şöbəsinə çağırıb sorğu-soruna tuturdular mən deyilənlərin doğruluğunu, ancaq səbəbini bilmədiyimi deyirdim. Ancaq mən belə halı ağlıma da gətirə bilmirdim, ailəmizin maddi durumunda çətinlik yaradanların məqsədinin elə buna hesablanmış olduğunu qardaşım Hüseyinağa mənə demişdi. Buna cavab olaraq, təhsilimi başa vurmağı, sonra öz gələcəyim üçün planlarımı gerçəkləşdirməyi düşündüm. Həmin planlara doğru irəlilədim, ona mütləq çatacağıma özümdə əminliklər yaratmışdım. Bu əminliklər ümidimi itirməyimə heç zaman girəvə vermədi. Elə çağ olurdu, əlavə dəftər, qələm, idman paltarı, idman ayaqqabısı almağa, komsomol təşkilatının, qrup yoldaşlarımın keçirəcəyi hər hansı tədbir üçün, başqa zəruri xərc üçün tələb edilən pula gücüm çatmayanda, ac olanda dərsə davam edə bilmirdim.

Durumumdan bilgisiz olan müəllimlərimdən bəziləri tez-tez xəstələndiyimdən, ara-sıra dərsə gecikməyimi özlərinə qarşı saymazlıq göstərməyim kimi anlayırdılar. Onlar həyatımda mövcud ağır çətinlikləri bilmirdilər. Ona görə də hətta özlərinə aidliyi olmayan fənlərdən də məni kəsdirməyə çalışırdılar. Bununla belə, Azərbaycan Dövlət universitetində müəllimim olmuş hər kəsi böyük sayqılarla yada salıraam. Millətsevərlikdə, millətin övladlarına bilik vermək istəyində, dürüstlükdə, təmizlikdə, vicdan məsələsində indi də onların yeri görünür. Mənim durumumu anlamayan Arif müəllimə, Şəmsəddin müəllimə, İsmət müəllimə, Qafar müəllimə də minnətdarlığımı bildirirəm, münasibətim belədir. Onlar bilik sahələrinə bizim yaxşı yiyələnməyimizə namusla çalışırdılar, varlıqlarını sərf edirdilər. Mənə olan münasibətlərinin də kökündə müəllimlərimin bu istəkləri dayanırdı. Onlar həyatımı sarmış ağrı-acıları, çətinlikləri özüm dəməəmiş olduğum halda haradan biləydilər? O çağlar tələbələrinin çətinliklərini biləndə onlara maddi cəhətdən yardım göstərən müəllimlər az olmurdu. Ancaq mən bütün çətinliklərimi hamıdan, ta doğmalarımdan, hər gün təmasda olduğum tələbə yoldaşlarımdan da gizlədirdim, onlara bildirməyi özümə sığışdırmırdım. Bildirsəydim, biri bunları özünə dərd edəcəkdi, birinin mənə yazığı gələcəkdi, biri halıma yanacaqdı, biri sevinəcəkdi, biri əlinə düşən fürsətdən yararlanmağa çalışacaqdı...

Mənəvi sıxıntılardan yaxa qurtara bilmədiyim də məni üzürdü. Bunca, öz dolanışıq, yaşayış xərclərimdən savayı, idman geyimi, qələmdəftər, qəfil ortaya çıxan bir çox qaçılmaz xərclərin öhdəsindən gələ bilmədiyim, dərslərdən yayınmağa məcburluğum, dostlarım, tələbə yoldaşlarım yanında imkansız, yazıq görünmək qorxusu məni üzürdü. İdman forması, idman üçün daim lazım olan bəzi əlavə şeyləri almamaq məqsədilə idman dərslərindən azad olunmağa, heçolmasa, "zəif qruplar"a getməyə çalışırdım. Bunun üçün həkim rəyi tələb olunurdu. Yaxşı geyimim yox idi, qarlı-şaxtalı günlərdə tez-tez xəstələnirdim.

Belə günlərin birində ciddi xəstələndim, temperaturum yüksəldi, bir neçə gün yataqxanadan bayıra çıxa bilmədim, xəstəliyim daha da ağırlaşdı, huşumu itirdim, yataqxana yoldaşlarım məni universitetin tibb məntəqəsinə aparanda "özümdə olmamışdım". Həkim Ağaməmməd Zeynalov Qara ciyərimin şişdiyini, ciyər pərdəsinə su yığıldığını müəyyənləşdirmişdi, həkimin dediyinə görə, temperaturum 41 dərəcədən də yüksəyə qalxmışdı. Həkim məni müalicə edirdi, əslən İmişlidən olan Sona xanımla, əslən Şamaxıdan olan Əzizə xanım (soyadlarını unutduğuma görə mənsub olduqları bölgəni yazdım) tibb bacıları kimi çalışırdılar. Həkim də, tibb bacıları da vətənsevər, millət təəssübçüsü, savadlı, mənəviyyatlı, mədəniyyətli, tərbiyəli insanlar idilər. Sonradan, elə yüksək temperaturda huşumu itirdiyimi deyirdilər. Həkim də, tibb bacıları da ciddi səylə temperaturumu aşağı sala bilmişdilər. Ayılanda tibb bacılarının mənim öləcəyimi görüb ağladıqlarını deyirdilər. Bir az özümə gələndən sonra həkim istirahət etmək üçün gecə öz evinə getdi. Sonra nə baş verdiyindən xəbərim olmamışdı.

Səhərəyaxın həkimin, tibb bacılarının, palatalardan gəlmiş insanların ətrafıma yığışıb ağlaşdığını gördüm. Səhər açılanda artıq özümə gəlmişdim. Həkim Ağaməmməd Zeynalov səhər saat beşə qalmış evindən qayıdıb gəlmişdi. O, səhər saat 3-4 radələrində yuxuda görür, mən ölmüşəm, torpağa tapşırmağa aparırlar. Küçəni keçəndə it üstünə atılır, bu vaxt yuxudan ayılır, düşünür, mənim başıma nə isə gəlib, bəlkə də doğrudan da ölmüşəm. Tələsik geyinib xəstəxanaya gələndə məni ağır durumda görür. Bu, Ağaməmməd Zeynalovun göstərdiyi həqiqi həkimliyin, əsl insanlığın nümunəsi idi. Səksəninci illərdə bir gün Elmlər Akademiyasının bağından keçəndə məni çağırdılar. Dönüb 57-ci ilin noyabr ayında məni ölümün çəngəsindən qurtaran həkim Ağaməmməd Zeynalovu ADU-nun aralarında öz müəllimlərimdən də olan bir neçə müəllimi ilə skamyada oturub söhbət eləyən gördüm. Yaxınlaşıb böyük ehtiramla onlarla görüşdüm. Böyük rəğbət bəslədiyim həkim Ağaməmməd Zeynalov mənim işlərimi, evli olub 50-ci illərdən sonra ilk dəfə idi onu görürdüm. Onun harada olduğundan məlumatsız idim.

50-ci illərin sonu, 60-cı illərin önü universitetdən Nəriman Nərimanov adına Tibb institutuna keçmiş, dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almış, dosent olmuşdu. Ailəli olub-olmadığını, səhhətimi soruşdu, yuxarıda təsvir elədiyim olayı geniş danışdı. Çox təsirli idi. Görkəmli həkim, ləyaqətli insan Ağaməmməd Zeynalov dünyadan köçmüşdür. Allah rəhmət eləsin. Onu o illərdən bəri heç vaxt unutmamışam, yeri düşəndə onun o nəcibliyi, milli təəssübçülüyü, insansevərliyi, mədəniyyəti, həkimlik bacarığı barədə çoxlarına danışıram, onu həmişə yad edirəm. Çətinliklər məngənəsində sıxıldığımı anlayan anamın dərdlərinin üstünə mənim ağır maddi durumum da dərd gətirirdi. Mən isə, evə həmişə məktub yazırdım, sifariş göndərirdim, deyirdim, anam məndən arxayın olsun, çətinliyim yoxdur, işlərim yaxşıdır. İstəyirdim, anam darıxmasın, ağır maddi durumumdan soraq tutub ağlamasın. O, isə, çox həssas idi. Mən kəndə gedəndə hansı çətinliklə üzləşdiyimi üzümdən, nigaran baxışlarımdan duyurdu... Anamdan ötrü, evimiz, tay-tuşum, kəndimizin qocalı-uşaqlı hər bir şəxsi üçün darıxırdım. Hər dəfə semestr imtahanlarını verəndə evə getməyə tələsirdim. Universitetin, onun möhtəşəm bir fakultənin tələbəsi kimi kəndə getməyi özüm üçün şərəf sayırdım, bununla qürrələnirdim.

Səhv etmirəmsə, ikinci kursda oxuyurdum, semestr imtahanlarını vermişdim. Kəndə getmək qərarına gəldim. Biləsuvar (o çağkı Puşkin) yaxınlığındakı sərhəd-buraxılış məntəqəsindən keçmək üçün vaxtında buraxılış vərəqəsi almışdım, getməyim barədə kənddən etiraz olmadığı barədə arayışım da var idi. Məntəqədə sənədləri yoxlayanda hansısa hərfi oxuya bilmədiklərinə görə məni avtobusdan düşürtdülər. Rusca bilmədiyimə görə onları qandıra bilmədim. Avtobusu yola saldılar, məni isə, geri qaytardılar. Qış günü idi, saat üç ətrafında işləyirdi. Geri qayıtmağa pulum yox idi, məni aparan avtobus da getmişdi. Çıxış yolu tapmaq mənim üçün çox çətin idi. Kanal boyu gedib kanalın münasib hissəsindən tullanaraq Puşkinə (Biləsuvar) piyada getmək, dayım oğlu Mirsalam gildə gecələyib oradan evimizə yollanmaq qərarına gəldim. O çağ yaranmış durumumu indinin özündə də düşünəndə, yol arayanda başqa bir çıxış yolu görmürəm.

Maşın yolu ilə xeyli məsafə gedib sərhədçilərin gözündən yayındığımı güman etdim. Sonra kanalboyu gedib sola döndüm, kanala tərəf gəlib keçmək üçün münasib yer axtardım. Kanal su ilə dolu idi. Kanalın eni hər yerdə təqribən eyni idi. Artıq hava qaralırdı, oralarda qurdun adam yediyi barıdı də eşitmişdim. Gecikmək olmazdı. Kanalın münasib bildiyim bir yerini gözaltı elədim, bir neçə dəfə oradan o biri sahilə tullanmaq istədim, ancaq, əlimdəki çemodan buna mane oldu. Mühazirə dəftərlərim, zaçot dəftərçəm də daxil olmaqla nəyim vardısa, hamısı çemodanda idi. Düşündüm, çemodanı o biri sahilə tullasam, həm qurddan, həm qarlı havada gecəyə düşməkdən yaranan qorxu hissim, üzməyi bacarmadığıma görə suyun aparacağından doğan təşvişim, həm də çemodanımla bağlı taleyimdən nigarançılığım özümü səfərbər etdib kanaldan tullanmağıma kömək edər. Gücümü toplayıb çemodanı kanalın o biri sahilinə tulladım. Özüm geri çəkilib qaçaqaça kanala yaxınlaşdım, tullanmaq üçün özümü hazır görməyib dayandım. Bir az gözlədim, düşündüm, faciəmin yaxınlaşdığını görüb yenidən geri çəkildim, qaçaraq fikrimi bir yerə topladım, əks sahilə tullandım, üzüm üstə kanalın aşırımına düşdüm, ayaqlarım kanala sallandı, ümidimi itirməyib "çör-çöp"dən tuta-tuta kanaldan uzaqlaşa bildim. Hər cür çətinliyə tab gətirə-gətirə, həm də atasızlığın mənəvi əzablarıyla əlbəyaxa, universitetdən çıxarılacağımın, siyasi baxışlarıma görə həbs ediləcəyimin mümkünlüyünü düşünə-düşünə, təqiblərlə üz-üzə ADU-nunun fizika fakultəsini bitirdim.



**Bəhmən SULTANLI**

Universitetdə mexanika və molekulyar fizika fənlərini dosent Mədət Sərdarlı, ali riziyyat fənnini baş müəllim Sabir Nəsibov, fransız dili fənnini Aşurbəylilər törəmələrindən olan asistent Sitara Aşurbəyli, elektrik bəhsini dosent Kəriş Köçərli, optika fənnini dosent Mehdi Əliyev, radiotexnika kursunu dosent Lətif İmanov, yarıkeçiricilər fizikası fənnini professor Həsən Abdullayev, kristalloqrafiya fənnini professor Aslan Vəzirzadə, tərsimi həndəsə fənnini baş müəllim Abdullabəyov, astronomiya fənnini dosent Əsgər müəllim, Atom və nüvə fizikası fənlərini əslən Krım tatarlarından olan dosent Rəhmi Həsənov, riyazi fizika fənnin baş müəllim Arif İsmayılov, analitik həndəsə fənnini baş müəllim Nazim Abbasov, kvant mexanikası fənnini dosent Əlicavad Cavadov, statistik fizika fənnini dosent Abdulla Muxtarov, elektrodinamika fənnini baş müəllim İsmət Nəcəfov, nəzəri mexanika fənnini dosent Tofiq Bektaşi deyirdi. İndinin özündə də bu müəllimlərin tələbəsi olduğumdan qürur duyuram.

Hələ birinci kursda oxuyarkən öyrədilmiş müəyyən adamlar var gücləri ilə oxumağıma əngəl törətməyə çalışırdılar. Oxu zalından, tənəffüz vaxtı partanın üstündən, yaşadığım otaqdan yazdığım mühazirələri oğurlayıb məhv edirdilər. Məqsədlərinin universiteti ya könüllü buraxıb getməyimin, ya da imtahanlardan kəsilib qovulmağımın olduğunu anlayırdım. Onların əməllərinin səbəblərini özüm duyurdum - bu, "xalq düşməni"nin oğlu olmağımla bağlı Dövlət Təhlükəsizlik Komitəsi tapşırığı ola bilərdi yada zəndə gəlməyən kimsə. Əlbəttə, icraçılar bu məqsədi başa düşməyə bilərdilər.

*(Ardı var)*